# Azərbaycanın gənclər siyasəti dünyada örnək və uğurlu model kimi qəbul olunur




**Ötən gün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu 2015-ci il üçün hesabat konfransı və 2 fevral- Gənclər Gününə həsr edilmiş tədbir keçirdi. Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəsmiləri, Milli Məclisin deputatları, gənclər təşkilatlarının nümayəndələri və digər qonaqlar iştirak edirdilər.**



Tədbirdə çıxış edən Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev Azərbaycanda dövlət gənclər siyasətindən danışaraq qeyd etdi ki, ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycanda gənclər siyasətinə xüsusi önəm verdi. Azərbaycan gənclərinin ilk forumu məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirildi və 2- fevral Gənclər Günü elan edildi. F.Hacıyev bildirdi ki, heç bir ölkədə gənclərə Azərbaycanda olduğu qədər diqqət və qayğı göstərən qurum yoxdur. Azərbaycanda Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, QHT-lərə Dövlət Dəstəyi Şurası var ki, gənclərə dəstək verir, onların layihələrini maliyyələşdirirlər. İndiyə qədər Fond 7 qrant müsabiqəsi keçirib. Müsabiqələr zamanı Fonda müxtəlif layihələrlə bağlı 5080 müraciət daxil olub və onlardan 2333-ü müsbət cavablandırılıb. Ümumilikdə, bu layihələrə 13.5 milyon manatdan artıq vəsait ayrılıb. Prezident İlham Əliyev bu günlərdə gənclərlə görüşündə bildirdi ki, bu sahəyə dəstək artacaq. Gənclər Fondu möhtərəm Prezidentimizin təşəbbüsü ilə yaradılıb, biz dövlətimizin başçısına minnətdarıq. Azərbaycanlı gənclərin qələbə sorağının dünyanın bütün qitələrindən eşidilməsi dövlətimizin dünya birliyinə inteqrasiyasının məntiqi nəticəsidir. Respublikanın gənclər təşkilatları BMT, Avropa Şurası, İƏT, GUAM, MDB və digər beynəlxalq təşkilatlarla əlaqə yaradır, birgə layihələr həyata keçirirlər. Bütün bunlar intellektual Azərbaycan gəncliyinin formalaşmasını sübut edir.

Gənclər Fondunun Aparat rəhbəri Faiq Qürbətov isə qurumun yaradıldığı vaxtdan bu günə qədər gördüyü işlərin statistikasını açıqladı. Bildirdi ki, Gənclər Fondu 4 il ərzində 7 qrant müsabiqəsi keçirib, 2333 layihəyə dəstək verib. Dəstəklənən layihələrdən üçdə ikisi fərdi gənclərin, üçdə biri isə gənclər təşkilatlarının layihələri olub.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini, Gənclər Fondunun Müşahidə Şurasının sədri Tahir Süleymanov Şuranın ötənilki fəaliyyəti haqqında danışaraq layihələrin qiymətləndirmə meyarları haqqında geniş məlumat verdi. Bildirdi ki, Müşahidə Şurası ötən il bir neçə görüş keçirərək Fondun fəaliyyətini tənzimləyən bir sıra mühüm sənədlər qəbul edib.



Sevindirici haldır ki, ildən-ilə Gənclər Fonduna maraq artır və Fonda təqdim olunan layihələrin sayı da çoxalır.

Tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirdi ki, Azərbaycanda gənclərə xüsusi dövlət qayğısı mövcuddur. Ötən 20 il ərzində Azərbaycan gənclər siyasəti sahəsində bir çox hədəflərə çataraq dünyaya nümunə olacaq gənclər siyasəti formalaşdırıb. İ.Babayev qeyd etdi ki, Gənclər Fondu yarandığı gündən gənclər təşkilatlarının fəaliyyətinə dəstək göstərib, qısa müddət ərzində gənclər təşkilatlarının və fərdi gənclərin minlərlə təşəbbüslərini dəstəkləyib. İnanıram ki, bundan sonra da gənclərimiz Azərbaycan dövlətinin qayğısını hiss edəcək və onlar dövlətimizin inkişafı və daha da qüdrətlənməsi üçün potensiallarını əsirgəməyəcəklər. İ.Babayev xüsusi olaraq vurğuladı ki, sürətlə inkişaf etməkdə olan ölkəmizdə sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakı nəzərə çarpır. Ölkəmizin sosial, iqtisadi, mədəni inkişafında əlbəttə ki, gənclərin böyük rolu var. Onlar nəinki bu prosesin iştirakçısı qismində, həttə həyata keçirilən fəaliyyətlərin aparıcı qüvvələri kimi çıxış edirlər.

Milli Məclisin deputatı Fuad Muradov bildirdi ki, gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Azərbaycanda gənclər siyasəti elə bir modeldir ki, dünyanın heç bir yerində yoxdur. Artıq yeni innovasiyalar və texnologiyalar dövrü başlayıb. Biz yeni çağırışlara hazır olmalıyıq. Dövlətimizin ötən illər ərzində gördüyü işlərin təbliğ olunmasına ehtiyac var. Son illər Azərbaycanın inkişafını çəkinmədən layihələrimizdə təbliğ etməliyik.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov bildirdi ki, gənclərlə bağlı Dövlət Proqramlarının tam mənada həlli müasir gəncliyin dövlətçilik prinsipləri əsasında, vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə olunması, mili mənəvi dəyərlərə bağlılıq hisslərinin artırılması, ixtisaslı mütəxəssislərin hazırlanması üçün əlavə islahat və layihələrin tətbiqini sürətləndirəcək. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni tərəqqisi ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir.

Tədbir gənc layihəçilərin çıxışları ilə davam etdi.



**Şəmsiyyə Əliqızı,**
**Səlim Rəhimzadə,**
**Leyla Şıxəliyeva,**
**Tural Əhmədov, (foto)**
***"İki sahil"***